*Özəl sektor*

# Milli mebel sənayesinin inkişafına diqqət artıb

## *"Embawood" şirkəti bir çox ölkələrə yerli məhsullar ixrac edir*

*Azərbaycan Prezidenti cənab İlham Əliyev 21 aprel 2016-cı il tarixdə hər il aprelin 25-i tarixinin ölkəmizdə "Sahibkarlar Günü" kimi qeyd edilməsi barədə sərəncam imzalamışdır. Bu münasibətlə aprelin 25-də İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə "Sahibkarlar Günü"nə həsr olunmuş konfrans keçirilmişdir. Qeyd edək ki, "Sahibkarlar Günü"nün 25 apreldə keçirilməsi təsadüfü seçilməmişdir. Bu gün Azərbaycanda güclü sahibkarlar ordusu yetişmişdir və onlar iqtisadiyyatımızın inkişafında, özəl sektorun, biznes mühitinin formalaşmasında mühüm rol oynayırlar. Haqqında söhbət açdığımız bu və ya digər məsələlər barədə suallarımızı həm regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına (26 yanvar), həm də "Sahibkarlar Günü"nə (25 aprel) həsr olunmuş konfranslarda iştirak və çıxış edən, ölkənin lider mebel şirkəti olan **"Embawood" Məhdud Məsuliyyətli Cəmiyyətin Müşahidə Şurasının sədri Elşad Abbasov** ətraflı cavablandıraraq dedi:*

—2016-cı il Azərbaycan Respublikasının tarixində əlamətdar hadisə ilə yadda qalacaq. Belə ki, oktyabr ayında müstəqilliyimizin bərpasının 25-ci ildönümü tamam olur. 1991-ci ildən bu günədək ölkəmiz istər neft, istərsə də qeyri-neft sektorunda böyük inkişaf yolu keçmiş, bir çox uğurlara imza atmışdır. Azərbaycan iqtisadi inkişaf tempinə görə nəinki regionda, eləcə də dünyada lider dövlətlərdən birinə çevrilmişdir. Əldə olunan nailiyyətlərdə özəl bölmə xüsusi yer tutur və onun çəkisi ildən-ilə artır. Təsadüfü deyildir ki, ümumi daxili məhsulda özəl sektorun payı 80 faizi, məşğulluqda isə 74 faizi ötmüşdür. Bütün sahələrdə olduğu kimi, özəl bölmədəki uğurlar da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, böyük öndər hakimiyyətə qayıtdıqdan sonra aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər sayəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlar sinfinin formalaşması üçün hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilmişdir. Ulu öndərin 2002-ci il aprelin 25-də yerli iş adamları ilə keçirdiyi görüş respublikamızda sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Məhz Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə aprelin 25-nin ölkəmizdə "Sahibkarlar Günü" kimi təsis edilməsi həmin görüşün keçirildiyi tarixi günlə bağlıdır.

2016-cı il həmçinin "Embawood" şirkəti üçün də əhəmiyyətli tarixdir. Çünki bu il şirkət fəaliyyətə başlamasının 20 illiyini qeyd etməyə hazırlaşır. Düzdür, inkişaf etmiş dünya ölkələri ilə müqayisə etsək mebel sektorunda 20 il elə də böyük rəqəm deyil. Lakin dövlətimizin bu sahəyə olan dəstəyi və göstərilən qayğı özünün xam materialı, mebel istehsalında ənənəsi olmayan bir respublikanı bu sahədə Cənubi Qafqaz regionunun liderinə və dünyanın bir çox ölkələrinə mebel ixrac edən ölkəsinə çevirmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatının müxtəlif sahələrində yeni istehsal müəssisələri istifadəyə verilib. Bunlardan biri də 1996-cı ildə Masallı rayonunda mebel istehsalı üzrə yaradılan "Embawood" şirkətidir. Göstərilən dövlət dəstəyi sayəsində müəssisəmiz ildən-ilə inkişaf edib, öz istehsal gücünü artırıb. Şirkətimiz tərəfindən müxtəlif ofis və məişət mebelləri, həmçinin mebel sənayesi üçün yarımfabrikat məhsullar istehsal olunur. Ümumilikdə müəssisəmizin yaradılması və inkişaf etdirilməsinə 80 milyon manat investisiya qoyulub. Hazırda respublikada 135 brend mağazamız fəaliyyət göstərir və istehsal olunan məhsulların "EMBAWOOD", "Modeyra" və "İdeal Dizayn" markaları altında satışı həyata keçirilir.

Ölkəmizdə qeyri-neft məhsullarının ixracının stimullaşdırılması istiqamətində dövlət başçısının verdiyi tapşırıqlar bütün sahibkarlar kimi, bizi də ixracla bağlı yeni hədəflərə çatmağa sövq edir. Şirkətimiz məhsul istehsalı üçün lazım olan xammalı müxtəlif MDB ölkələrindən alır. Bu baxımdan məhsullarımızın maya dəyərini aşağı salmaqla rəqabətqabiliyyətliliyi gücləndirmək, istehsalımızı artırmaq, həmçinin Rusiya, Qazaxıstan və Orta Asiya ölkələrinə ixrac imkanlarımızı genişləndirmək üçün həmin xammal materiallarının gömrük rüsumlarından azad olunması məqsədəuyğun olardı.

Dövlətimizin sahibkarlara göstərdiyi maddi və mənəvi dəstək bizə fəaliyyətimizdə hər zaman böyük kömək olub. Bu dəstək mexanizmlərdən biri kimi şirkətimizə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 3,2 milyon manat güzəştli kredit verilib. Bu maliyyə dəstəyi müəsissəmizdə yeni avadanlıqların və müasir texnologiyanın tətbiqinə imkan yaradıb, istehsal gücünü və rəqəbətqabiliyyətliliyi artırıb, daha keyfiyyətli məhsul istehsal etməyimizə səbəb olub. Bu gün şirkətimizdə 2000-dək işçi çalışır. Təkcə son 3 ildə müəssisəmiz tərəfindən dövlət büdcəsinə 25 milyon manat məbləğində vergilər və sosial ödənişlər həyata keçirilib.



Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində ölkəmizin rəhbəri yerli mebel istehsalı ilə bağlı demişdir: "Burada bəzi çıxışlarda səsləndi—indi Azərbaycanda yerli istehsal nə qədər inkişaf edir, o cümlədən mebel istehsalı. Ancaq bizim dövlət idarələrində yerli mebeldən istifadə edirlərmi? Yox. Hər bir kiçik məmur istəyir ki, onun kabinetində xarici mebel olsun. Nə üçün?... Bizdə gözəl mebel istehsal olunur. Təkcə bu, "Embowood" şirkəti deyil. Bizdə bəlkə də mebel istehsal edən onlarla şirkət var".

Dövlət başçısının nitqindəki bu fikirlər həm iş adamlarının problemləri ilə yaxından maraqlanmasının, həm də biz sahibkarlara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Xüsusi vurğulamaq istərdim ki, möhtərəm Prezidentimiz hələ 2004-cü ildə yenidən qurulmuş müəssisəmizdə olarkən verdiyi tapşırıq və tövsiyələri bu gün də öz aktuallığını qoruyub saxlayaraq qarşıdakı hədəflərimizin əsasını təşkil edir. Dövlətimiz tərəfindən göstərilən dəstək bizi işimizə daha böyük həvəslə və peşəkarlıqla yanaşmağa, ölkə iqtisadiyyatına öz töhfəmizi daha da artırmağa ruhlandırır.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**